AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*   *№ 32 (1432), 20 - 26 avqust 2019-cu il*   *Qəzet 2001-ci ildən çıxır.*



## Gənc güləşçilərimiz dünya birinciliyini 6 medalla başa vurdular

Estoniyanın paytaxtı Tallində güləş üzrə gənclər arasında dünya birinciliyi keçirilib. Yarışda iştirak edən Azərbaycan güləşçiləri dünya birinciliyini 2 gümüş, 4 bürünc medalla başa vurublar.

Dünya birinciliyinin ilk yarış günündə 57 kq, 65 kq, 70 kq, 79 kq və 97 kq-da çıxış edən sərbəst güləşçilər mübarizəyə başlayıblar. Yığmanın əsas simalarından sayılan Turan Bayramov (65 kq) ilk mərhələdə gürcüstanlı rəqibinə xal vermədən qalib gəlib. Gənclər arasında Avropa çempionu 1/8 finalda ABŞ idmançısından da üstün olub.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan millisi "Gündoğar ölkə"də 16 cüdoçu ilə mübarizə aparacaq

Avqustun 25-dən sentyabrın 1-dək Yaponiyanın paytaxtı Tokioda cüdo üzrə böyüklər arasında dünya çempionatı keçiriləcək. Yarışda 149 ölkədən 866 (524 kişi, 342 qadın) cüdoçu qalib adı uğrunda mübarizə aparacaq. Rekord sayda idmançının iştirak edəcəyi çempionatda Azərbaycan yığması 16 (9 kişi, 7 qadın) cüdoçu ilə təmsil olunacaq. Komandamız ilin ən nüfuzlu yarışında qızlar arasında Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva, Aleksandra-Larisa Florian (hər ikisi 52 kq), Munxtsedev İçinxorloo (57 kq), Günel Həsənli (70 kq), İrina Kindzerska (+78 kq) ilə mübarizə aparacaq. Oğlanların yarışlarında isə Davud Məmmədsoy (60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq), Uşangi Kokauri (+100 kq) güclərini sınayacaqlar. Mundial 1964-cü ildə Tokio Yay Olimpiya Oyunlarında cüdo yarışlarının keçirildiyi "Nippon Budokan" arenasında təşkil olunacaq.

Dünyanın ən güclü cüdoçuları Tokio-2020-yə lisenziya əldə etmək üçün bütün qüvvələrini səfərbər edəcəklər. Olimpiya Oyunlarının formatına tam uyğun qaydada keçiriləcək dünya çempionatı səkkiz gün davam edəcək. Yeddi gün ərzində keçiriləcək fərdi mübarizələrdən sonra sentyabrın 1-də qarışıq komanda yarışı keçiriləcək.

Xatırladaq ki, sonuncu dünya çempionatı ötən ilin sentyabrında Bakıda keçirilib. 800-dək cüdoçunun mübarizə apardığı həmin mundialda Azərbaycan idmançıları 1 gümüş və 1 bürünc medal qazanıblar.



## Pəhləvanlarımız dünya çempionatına hazırlaşırlar

Sentyabrın 14-dən 22-dək Qazaxıstanın paytaxtı Nur-Sultanda güləş üzrə dünya çempionatı keçiriləcək. İlin ən mühüm yarışı olan dünya çempionatı Tokio-2020-yə lisenziya xarakteri daşıyır. Bu baxımdan yığmalarımız mundiala intensiv şəkildə hazırlığını davam etdirir. Yunan-Roma və sərbəst güləş üzrə millilərimiz Göygöl Olimpiya İdman Kompleksində yarışlara hazırlaşırlar. Bu toplanışda Qırğızıstanın yunan-Roma güləşi üzrə yığması da iştirak edir. Qadınlardan ibarət yığmamız isə yarışlara Türkiyədə hazırlaşır. Komandamız Türkiyə yığması ilə birgə Sarıyer şəhərində hazırlıq keçir. Qeyd edək ki, sərbəst və qadın güləşçilərimizin toplanışı avqustun 24-dək, yunan-Roma güləşçilərimizin hazırlıq prosesi isə ayın 30-dək davam edəcək.






## Bədii gimnastika üzrə Azərbaycan və Bakı çempionatları təşkil olunacaq

Avqustun 29-31-də Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 26-cı Azərbaycan və Bakı çempionatları keçiriləcək. Yarışlarda Bakı Gimnastika Məktəbinin, Respublika Kompleks İdman Məktəbinin, "AyUlduz", "Ocaq Sport", "Zabrat" idman, "GymKids" klublarının, "Sərhədçi" İdman Olimpiya Mərkəzinin, Su İdman Sarayının, Daxili İşlər Nazirliyinin idman məktəbinin, Zirə Mədəniyyət Mərkəzinin yetirmələri, həmçinin Sumqayıt, Gəncə, Mingəçevir və Şağan gimnastları müxtəlif yaş kateqoriyalarında mübarizə aparacaqlar.

## Zəka sahiblərimizdən parlaq qələbə

Slovakiyada şahmat üzrə yeniyetmə və gənclər arasında Avropa birinciliyi keçirilib. Gənc şahmatçılarımız qitə çempionatında yüksək nəticə göstəriblər. Birincilikdə 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanan şahmatçılarımız komanda hesabında Rusiyadan sonra ikinci olublar.

Səkkiz yaşlı qızların turnirində Dinarə Hüseynova, 14 yaşlı qızların yarışında Ayan Allaverdiyeva Avropa çempionatının qızıl medalını qazanıblar. Xatırladaq ki, A.Allahverdiyeva keçən il də bu yaşda Avropa çempionu adına sahib çıxmışdı.




Səkkiz yaşlı qızların yarışında digər təmsilçimiz Səadət Bəşirli gümüş medal qazanıb.

Digər iki şahmatçımız - Yusif Kərimli (8 yaşlı oğlanların yarışında) və 8 yaşlıların son Avropa çempionu Cahandar Azadəliyev (10 yaşlı oğlanlar arasında) isə yarışı üçüncü pillədə başa vurublar.

## Anons

*Bakıda 3-cü beynəlxalq hakimlər seminarı keçirilib* Səh. 2

Milli komandanın yeni baş məşqçisi müəyyənləşib Səh. 2

*Nazim Hüseynov:* **"Həyatda ən böyük qələbəm ailə səadətimdir"** Səh. 3

"Azərbaycanın idman tarixinə düşmək mənim üçün çox qürurvericidir" Səh. 5

*Transfer xəbərləri* Səh. 7

UEFA Avropa Liqası (təsnifat)

## "Linfild" - "Qarabağ"

(Şimali İrlandiya) (Azərbaycan)

*22 avqust. Ş.İrlandiya. "Vindsor Park". Saat 22:45.*

## UEFA nümayəndələri Bakıda

2020-ci ildə təşkil olunacaq futbol üzrə Avropa çempionatının oyunlarına hazırlıq işləri ilə tanışlıq məqsədilə avqustun 19-da UEFA nümayəndələrinin Bakıya işgüzar səfəri başlayıb. UEFA-nın 70 nümayəndəsindən ibarət heyət müxtəlif sahələrdə hazırlıq işlərinin gedişi ilə tanış olacaqlar. UEFA nümayəndələrinin səfəri avqustun 22-dək davam edəcək. Həmin gün, eyni zamanda, Avro-2020-nin UEFA sponsorlarının da nümayəndələri Bakıya gələcək və Bakı Olimpiya Stadionu, şəhərimizdəki otellər, fan-zonanın təşkili üçün planlaşdırılan ərazilərlə tanış olacaqlar.

Xatırladaq ki, UEFA İcraiyyə Komitəsinin qərarına əsasən, Avro-2020-nin 4 oyunu Bakı Olimpiya Stadionunda keçiriləcək. İyunun 13-də, 17-də və 21-də "A" qrupunun oyunları, iyulun 4-də isə dörddəbir final mərhələsinin bir qarşılaşması Bakı Olimpiya Stadionunda təşkil olunacaq.

# Gənc güləşçilərimiz dünya birinciliyini 6 medalla başa vurdular

*(əvvəli 1-ci səhifədə)*

Gəncə güləş məktəbinin yetirməsi 1/4 finalda iranlı pəhləvana gərgin keçən görüşdə məğlub olub. Rəqib finala çıxdığı üçün T.Bayramov mübarizəni təsəlliverici görüşdə davam etdirib. Rumınıya idmançısını



çətinlik çəkmədən məğlub edən güləşçimiz 3-cü yer uğrunda qarşılaşmaya vəsiqə qazanıb. Həlledici görüşdə Türkiyə pəhləvanına qalib gələn Turan Bayramov dünya çempionatının bürünc medalına sahib çıxıb. Komandamızın digər üzvü Abubakr Abakarov (79 kq) təsnifat mərhələsində ABŞ təmsilçisindən güclü olub. Lakin idmançımız növbəti mərhələdə Rusiya güləşçisiylə gərgin mübarizə şəraitində keçən qarşılaşmadan məğlub ayrılıb. Rəqibin finala vəsiqə qazanması A.Abakarova təsəlliverici görüşə çıxmaq imkanı verib. Bu mərhələdə İtaliya idmançısına heç bir şans verməyən güləşçimiz növbəti görüşdə Yaponiya pəhləvanına vaxtından əvvəl qalib gəlib. Abubakr Abakarov üçüncü yer uğrunda qarşılaşmada ermənistanlı güləşçiyə qalib gələrək komandamızın hesabına növbəti bürünc medalı yazıb.

İkinci yarış günündə 61 kq, 74 kq, 86 kq, 92 kq və 125 kq-da çıxış edən sərbəst güləşçilər mübarizə aparıblar. Yarışa 1/8 final mərhələsindən başlayan Hacımurad Hacıyev (74 kq) gürcüstanlı və yunanıstanlı rəqibini üstələyərək yarımfinala yüksəlib. Lakin idmançımız növbəti mərhələdə amerikalı güləşçi ilə bacarmayıb. Üçüncü yer uğrunda qarşılaşmaya çıxan Hacımurad Hacıyev Rusiya pəhləvanına qalib gələrək dünya çempionatının bürünc medalına sahib çıxıb.

Beşinci yarış günündə 55 kq, 63 kq, 77 kq, 87 kq və 130 kq-da çıxış edən yunan-Roma güləşçiləri mübarizə aparıblar. Yarışa 1/8 finaldan başlayan Zaur Əliyev (55 kq) Qırğızıstan idmançısını tam üstünlüklə məğlub edib. Avropa çempionatının bürünc medalçısı növbəti görüşdə Moldova təmsilçisini də ilk hissədə qazandığı xallarla üstələyərək yarımfinala yüksəlib. Yarımfinalda 2 il əvvəl yeniyetmələrin dünya çempionatının finalında qarşılaşdığı Yaponiya idmançısıyla üz-üzə gələn




Z.Əliyev revanş alıb. İlk hissədə 4 xallıq fəndi uğurla icra edən Zaur hesabdakı üstünlüyü sonadək qoruyub və dünya birinciliyinin finalına vəsiqə qazanan ilk güləşçimiz olub. Pəhləvanımız həlledici qarşılaşmada Rusiya təmsilçisinə uduzub və gümüş medala sahib çıxıb.

Altıncı yarış günündə 60 kq, 67 kq, 72 kq, 82 kq və 97 kq-da çıxış edən yunan-Roma güləşçiləri mübarizəyə başlayıblar. Komandamızın üzvü Əsgər Əlizadə (60 kq) dünya birinciliyinə inamlı start verib. Mübarizəyə 1/8 finaldan başlayan yığmamızın üzvü koreyalı həmkarına heç bir şans verməyib. Lakin idmançımız 1/4 finalda böyüklər arasında son Avropa çempionatında bürünc medal qazanmış Türkiyə pəhləvanına uduzub. Rəqib finala yüksəldiyi üçün Ə.Əlizadə təsəlliverici görüşə çıxıb və 1 dəqiqə 20 saniyə ərzində əlcəzairli güləşçini mübarizədən kənarlaşdıraraq bürünc medal qarşılaşmasına vəsiqə qazanıb. Həlledici görüşdə Qırğızıstan idmançısını da tam üstünlüklə məğlub edən Əsgər Əlizadə dünya üçüncüsü olub. Komandamızın digər üzvü Ülvi Qənizadə (72 kq) ilk mərhələdə prinsipial görüşə çıxıb. İlk hissədə qazandığı xallar həmyerlimizə erməni güləşçi üzərində qələbə qazandırıb. Gənclər arasında Avropa çempionu növbəti qarşılaşmada Macarıstan idmançısına vaxtından əvvəl qalib gəlib. Ü.Qənizadə iranlı pəhləvanı da üstələyərək yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə Türkiyə güləşçisindən də güclü olan Ülvi adını finala yazdırıb. Həmyerlimiz həlledici qarşılaşmada Rusiya güləşçisiylə üz-üzə gəlib. Gərgin keçən görüşdə rəqib qalib gəlib və Ülvi Qənizadə gümüş medala layiq görülüb.

# Bakıda 3-cü beynəlxalq hakimlər seminarı keçirilib




***Dünya Karate Federasiyasının (WKF) Hakimlər Komissiyası rəsmilərinin rəhbərliyi ilə Bakıda 3-cü beynəlxalq seminar təşkil edilib.***

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) dəvəti ilə növbəti dəfə paytaxtımızda olan komissiya sədri Xavyer Eskalante (İsveç), komissiya katibinin asisstenti Fariba Madani (ABŞ) və komissiyanın üzvü Cavad Səlimi (İran) Rusiya, İran və Türkmənistanla birgə, yerli hakim və məşqçilərə seminarın nəzəri və praktiki hissəsində son yeniliklər və dəyişikliklərlə bağlı ətraflı məlumat veriblər.

Milli komandanın üzvləri də seminarda iştirak edib. WKF Hakimlər Komissiyasının rəsmiləri seminar iştirakçılarını maraqlandıran suallara cavab verib, müxtəlif döyüş vəziyyətlərində yaranan halların hakimlər tərəfindən qiymətləndirilməsi məqamlarını aydınlaşdırıblar.

Dəvətə görə AMKF rəhbərliyinə minnətdarlığını bildirən WKF Hakimlər Komissiyasının sədri Xavyer Eskalante, son 10 ildə Azərbaycan karatesinin dünyada ən yuxarı pillələrdə olduğunu diqqətə çatdıraraq, beynəlxalq yarışlarda yüksək reytinq əldə edilməsində federasiya kollektivinin işini nümunəvi fəaliyyət kimi qiymətləndirib.

AMKF prezidenti Yaşar Bəşirov, yerli hakim, məşqçi və idmançıların bilik və təcrübələrinin artıtılmasına səy göstərdiyinə görə X.Eskalante başda olmaqla WKF Hakimlər Komissiyasının rəsmilərinə təşəkkürünü çatdırıb. O, belə tədbirlərin dünya karatesinin daha da inkişafında mühüm rolu olduğunu söyləyib.

Federasiyanın baş katibi Mirhəsən Seyidov, İdarə heyətinin üzvləri Fizuli Musayev, Oqtay Məmmədov, Mircabbar Seyidov və Hakimlər komitəsinin sədri Cahangir Babayev seminarı izləyib.

Sonda seminar iştirakçılarına sertifikatlar təqdim olunub.

# Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş yarış

***Dövlət Sərhəd Xidməti (DSX) sərhədlərimizin etibarlı mühafizəsini təmin etməklə yanaşı, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onlarda sərhədçi peşəsinə marağın artırılması, sağlam həyat tərzinin təbliği və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə ardıcıl tədbirlər həyata keçirir.***



Bu tədbirlər çərçivəsində "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş sərbəst güləş üzrə açıq birincilik keçirilib. Yarışda respublikamızın müxtəlif bölgələrini təmsil edən 30 komandanın heyətində 250 idmançı müxtəlif çəki dərəcələrində qüvvələrini sınayıblar.

Yarışın təntənəli açılış mərasimində çıxış edənlər müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Dövlət Sərhəd Xidmətinin yaradıcısı ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini böyük minnətdarlıq hissi ilə xatırladıblar. Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarının Azərbaycan dövlətinin gücünü, iqtisadi qüdrətini, möhtəşəm tədbirləri təşkil etmək bacarığını, qazanılan qələbələrin isə ölkəmizdə idmana və idmançılara göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi olduğu vurğulanıb.

Yarışda 15 idmançısı ilə iştirak edən "Sərhədçi" komandası 6 qızıl, 4 gümüş və 2 bürünc medal qazanaraq kuboka sahib olub. İdmançılardan Mahir Məmmədov (48 kq), Camal Qasımov (55 kq), Zeyqəm Qurbanov (65 kq), Əli Əmirov (80 kq), Xəlil Allahverdiyev (92 kq), Murad Bəhlulzadə (110 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

# Yekaterinburq sınağına hazırlıq başladı



Kişilərdən ibarət boks üzrə Azərbaycan yığma komandası təlim-məşq toplanışına start verib. Toplanış kişilər arasında keçiriləcək dünya çempionatına hazırlıq xarakteri daşıyır. Bakı Boks Mərkəzində təşkil olunan və yarışın startınadək davam edəcək hazırlıqda 16 idmançı iştirak edir. Dünya çempionatı sentyabrın 7-dən 21-dək Rusiyanın Yekaterinburq şəhərində keçiriləcək.

# Milli komandanın yeni baş məşqçisi müəyyənləşib



Kişi boksçulardan ibarət Azərbaycan milli komandasının yeni baş məşqçisi müəyyənləşib. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, yığmanın böyük məşqçisi Nəriman Abdullayev Vaqif Şirinovun vəzifəsindən ayrılmasından sonra boş qalan postu müvəqqəti tutacaq. Onun qarşısına sentyabrın 7-21-də Rusiyanın Yekaterinburq şəhərində keçiriləcək dünya çempionatında uğurlu çıxış etmək vəzifəsi qoyulub. N.Abdullayevin rəhbərlik etdiyi məşqçilər korpusunda əvvəlki kimi Oqtay İbrahimov və Etibar Abdullayev yer alıblar. Dünya çempionatından sonra yığmaya yeni baş məşqçi təyin olunacaq.

# Voleybolçularımız Sloveniyadan Macarıstana yollanacaq




Avropa çempionatında iştirak edəcək voleybol üzrə qadınlardan ibarət milli komandamız Sloveniyada təlim-məşq toplanışını davam etdirir. Hazırlıq prosesi çərçivəsində millimiz Sloveniya yığması ilə yoldaşlıq oyunu keçirib. Voleybolçularımız yoldaşlıq matçında 5:0 hesabı ilə qalib gəliblər. Komandamız növbəti yoldaşlıq oyununu avqustun 20-də yenidən Sloveniya yığmasına qarşı keçirəcək. Millimiz Avropa çempionatının keçiriləcəyi Macarıstana avqustun 21-də Sloveniyadan birbaşa yollanacaq. "C" qrupunda mübarizə aparacaq komandamızın rəqibləri Xorvatiya, Hollandiya, Rumıniya, Estoniya və Macarıstan yığmaları olacaq. Qeyd edək ki, son Avropa çempionatında millimiz dördüncü olub.

# Millimizin üzvü Rumıniya klubunda

Voleybol üzrə qadınlardan ibarət milli komandamızın üzvü Anastasiya Bessonova karyerasını Rumıniyada davam etdirəcək.

İyirmi yaşlı hücumçu ölkə çempionu "Alba Blaj" klubuna transfer olub.

Voleybolçumuz Blaj şəhərinin təmsilçisi ilə bir illik müqavilə imzalayıb. O, yeni komandasına Avropa çempionatı başa çatdıqdan sonra qoşulacaq.

Xatırladaq ki, Azərbaycan yığması avqustun 23-dən sentyabrın 8-dək Budapeştdə keçiriləcək Avropa çempionatında mübarizə aparacaq. "C" qrupunda yer alan voleybolçularımız Macarıstan, Xorvatiya, Hollandiya, Estoniya və Rumıniya seçmələri ilə üz-üzə gələcəklər.

# Qitə birinciliyində iki medal

Tbilisidə 13-14 yaşlı boksçular arasında Avropa birinciliyi keçirilib. Yarışda Azərbaycan boksçuları da mübarizə aparıblar. Komandamız qitə birinciliyini bir qızıl və bir gümüş medalla başa vurublar. Qızıl medalı yığmamızın aktivinə Məhəmmədəli Qasımzadə (43 kq) qazandırıb. Məhəmmədəli Aşurəliyev (44,5 kq) isə Avropa birinciliyinin gümüş medalına sahib çıxıb.



Yubiley

# Nazim Hüseynov:
# "Həyatda ən böyük qələbəm ailə səadətimdir"

***Tarixə adını yazmaq heç də hər insana qismət olmur. Bunu ancaq layiq olanlar bacarırlar. Sevindirici haldır ki, bu gün bütün dünyanın tanıdığı həmvətənlərimiz kifayət qədərdir. Onlar fərqli vaxtlarda, müxtəlif sahələrdə beynəlxalq aləmdə tanınıblar. Bələlərindən biri də müstəqil Azərbaycanın ilk Olimpiya çempionu cüdoçu Nazim Hüseynovdur. O, 1992-ci ildə Barselonada keçirilən Olimpiya Oyunlarında fəxri kürsünün ən yüksək pilləsində üçrəngli bayrağımızı dalğalandırdı. İki dəfə (1992-1993-cü illərdə) Avropa çempionu olan Nazim Hüseynov həm də dünya çempionatının gümüş mükafatçısıdır. Tatami ustası 1995-ci ildə Şöhrət ordeninə layiq görülüb. Bu günlərdə 50 illik yubileyini qeyd edən Olimpiya çempionumuz hazırda kişilərdən ibarət milli komandamızın məşqçilərindən biri, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvüdür. Növbəti yaşına qədəm qoyması münasibətilə bir neçə gün əvvəl Olimpiya çempionumuzla görüşüb, həmsöhbət olduq. O, suallarımızı səmimi cavablandırdı.***



***- Nazim müəllim, bu yaxınlarda 50 yaşınız tamam oldu. Bu illərdə hansı yaddaqalan məqamlarla baş-başa qalmısınız?***

- Mənə belə bir ömür bəxş etdiyinə görə Allaha minnətdaram. İyirmi yeddi ildir ki, keçirdiyim hər bir doğum günü mənim üçün daha əziz olur. Sual oluna bilər ki, niyə məhz iyirmi yeddi il? Çünki iyirmi üç yaşım tamam olanda, yəni ad günümdə müstəqil Azərbaycanın ilk Olimpiya çempionu kimi bayrağımızı dalğalandırmışam. Bu, mənim üçün çox böyük fərəhdir. Həyatımda xoş məqamlar yetərincə olub. Əlbəttə, çətinliklərlə də üzləşmişəm. Amma onlara qalib gələ bilmişəm. Bu yaxınlarda uşaqlıq dostlarımızdan, məşq yoldaşlarımızdan biri - Süleyman Məmmədovun vaxtsız vəfatı çoxları kimi, məni də kədərləndirdi. O da idmanı çox sevir, həmişə idmançılara dəstək olurdu. Lakin həyat davam edir. Hər şeyə rəğmən həyatın yaxasından yapışmaq və yaşamağa davam etmək lazımdır.

***- Uşaqlıq və yeniyetməlik illərinizi necə xatırlayırsınız?***

- Uşaqlıq illərim maraqlı olub. Əvvəl Nizami rayonunda yerləşən 70 saylı məktəb-liseydə, sonra isə Bakıxanov qəsəbəsindəki 61 saylı məktəbdə təhsil almışam. Dördüncü sinifdən etibarən cüdo ilə məşğul olmuşam. Artıq altıncı sinifdə ardıcıl qələbələrin sevincini yaşamışam. Yeddinci sinifdə respublika çempionatında fərqlənmişəm. İndiki cüdo məşqçilərinin əksəriyyəti ilə birlikdə məşq etmişik. Bir qədər çılğın və istiqanlı olduğum üçün adım "davakar uşaq" kimi hallanırdı. Lakin həmişə haqsızlığa qarşı olmuş, əziləni müdafiə etmişəm. Çətin vaxtlar idi. Lakin xoşbəxt idik. Dostlarımızla birlikdə məhəllədə futbol, dama oynayır, fürsət düşəndə güləşirdik. Doxsanıncı illərdə artıq bütün dünyada tanınırdım. Məlumdur ki, Olimpiya çempionu olub, Avropa çempionatının qızıl medalını vətənimizə gətirmişdim.

***- Cüdonu sizə bu qədər sevdirən nədir?***

- Ümumiyyətlə, uşaqlıqdan bütün güləş idman növlərini sevmişəm. O vaxtlar cüdo ilə bağlı müxtəlif filmlər göstərirdilər. Elə həmin filmlər mənim cüdoya olan marağımı daha da artırdı və bu idman növü ilə məşğul olmağa başladım. Cüdonu digər idman növlərindən fərqləndirən bir çox xüsusiyyətlər var ki, bunlardan ən başlıcası nizam-intizam, səliqə-səhman və təmizlikdir. Məsələn cüdo geyimlərinin ağ rəngdə olması, görüş başlayarkən idmançıların bir-birinə təzim etməsi heç də təsadüfi deyil.

***- Qələbələrinizi necə xarakterizə edərdiniz?***

- Qalib gəlmək hər şeydən əvvəl xarakterlə bağlıdır. Xarakter nəinki cüdoçu, bütün idmançılar üçün ən vacib amildir. Əgər qalib gəlmək istəyirsənsə, gərək xarakterli olasan, əzmkarlıq göstərəsən, həqiqətən, qələbə istədiyini və buna layiq olduğunu sübut edəsən. Bu, həyatda da belədir. Cüdo isə mənim üçün həyatın bir hissədir.

***- Sizcə, peşəkar karyeranızı başqa idman növündə davam etdirsə idiniz, indi qazandığınız titulları qazana bilərdiniz?***

- Düşünürəm ki, mümkün idi. Dediyim kimi, bütün qələbələrin sirri xarakterdədir. Məndə həm xarakter, həm də idmana sevgi var. Odur ki, başqa idman növü ilə məşğul olsa idim belə, yenə də öz sözümü deyə bilərdim. Amma şərait və diqqət də öz yerində. Bunu bizdə inkişaf etmiş idman növlərinə aid edirəm.



***- Oğlunuz Naim də cüdo ilə məşğuldur. Necə düşünürsünüz, o da sizin kimi titullu idmançı ola bilərmi?***

- Bəli, oğlum da mənim yolumu davam etdirir. O, respublikada artıq tanınır. Sevindirici haldır ki, məndə olan əzmkarlıq ruhu Naimdə də var. Oğlum da böyük zirvələri fəth etməyə cəhd edir. Sadəcə, zədələr ona bir az mane olur. Lakin onun parlaq gələcəyinə bir valideyn kimi böyük ümid bəsləyirəm.

***- Tatamidə qələbələriniz kifayət qədər çoxdur. Bəs həyatda ən böyük "ippon"unuz nədir?***

- Mənim həyatda ən böyük qələbəm ailə səadətimdir. Çox xoşbəxtəm ki, belə bir ailəyə sahibəm.

***- Bəs həyat heç sizə "Şido" veribmi?***

- Haqsızlıqlarla çox üzləşmişəm. Çətin məqamlarım olub. Buna rəğmən mübarizə aparmağı bacarmışam. Ən əsası Tanrının ədalətinə, ilahi qüvvənin hər şeyi yerbəyer edəcəyinə inanmışam.

***- İnsanın çətin anlarında çıxış yolu göstərənlər çox, dayaq duranlar az olur. Bu fikirlə razılaşırsınız?***

- Tamamilə, razıyam. 1993-cü ildə Avropa çempionu olmağıma baxmayaraq, həmin dövr mənim üçün çox çətin idi. Hətta düşünürdüm ki, idmanı atmağın, tatami ilə vidalaşmağın vaxtıdır. Ancaq həmin anlarda həyat yoldaşım mənə çox böyük mənəvi dəstək oldu. Cənab İlham Əliyev 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra digər bütün idmançılar kimi mənə də xüsusi qayğı ilə yanaşdı. Onun sayəsində müalicə aldım, məni narahat edən problemlərdən yaxa qurtardım. Dediyim kimi, olduqca çətin vaxtlarım olub. Lakin onları düşünmək yox, gələcəyə nikbin baxmaq lazımdır.

***- Sizin haqqınızda "İlk qızıl" adlı sənədli film çəkilib. Filmdəki sujetlər həyatınızı tam əks etdirə bilibmi?***

- Bu film mənim həyatımın yalnız bir hissəsini əhatə edib. Daha çox Barselonadakı tarixi uğurum və ailə həyatımın bir hissəsi lentə köçürülüb. Amma düşünürəm ki, insan həyatını özündə əks etdirən bir film ərsəyə gətirmək elə də asan deyil. Həyatımız bir filmdi. Biz isə onun qəhrəmanları. Ssenari isə taleyin hökmünə aiddir.

***- Asudə vaxtınızı necə keçirirsiniz?***

- Asudə vaxtım o qədər də çox olmur. Lakin həmişə ailəmə, övladlarıma vaxt ayırmağa çalışıram. Bəzən də uşaqlıq dostları ilə görüşür, keçmiş günlərimizi xatırlayırıq. Yaş artdıqca insan uşaqlığı üçün daha çox darıxır.

***- Çox istədiyiniz amma indiyə kimi reallaşdıra bilmədiyiniz arzunuz varmı?***

- Təbii ki, var. Çox istəyirəm ki, adımı daşıyan bir cüdo məktəbi açım. Hazırda yığma komandada çalışdığıma görə, bu işlə məşğul ola bilmirəm. Lakin nə vaxtsa mütləq bir cüdo məktəbi yaradacağam və öz proqramıma uyğun məşqlər keçəcəyəm. Gərək bu idman növü ilə bağlı öz bilik və bacarıqlarımı gənc nəsillə bölüşüm. Əgər qismət olarsa çalışacağam ki, həmin məktəb uşaqlıq illərimi keçirdiyim məhəlləmiz tərəfdə olsun. Həm ona görə ki, mənim uşaqlığım burada keçib, həm də bu ərazidə cüdoya maraq daha çoxdur.

***- Sonda "Olimpiya dünyası" qəzetinin kollektivi adından sizi yubiley münasibətilə təbrik edirik.***

- Sağ olun ki, siz də daim məni diqqətdə saxlayır, ad günüm münasibətilə təbrik edirsiniz. Buna görə "Olimpiya dünyası"qəzetinin kollektivinə öz təşəkkürümü bildirirəm.

***Kənan Novruzov***



# Layihənin yekunları müzakirə olunub

"Fiziki məhdudiyyətli şəxslərin idman sahəsində bacarıqlarının inkişaf etdirilməsi" layihəsinin yekunları müzakirə olunub. Layihə Əlil İdmançılara Dəstək İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə, Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) təşkilati dəstəyi ilə reallaşdırılıb.

Komitənin prezidenti İlqar Rəhimov layihə çərçivəsində görülmüş işlərin əhəmiyyətini vurğulayaraq, gələcəkdə regionlarda paralimpiya idman növlərinin daha da inkişaf etdirilməsi məqsədilə təlimatçıların hazırlanmasının vacibliyini diqqətə çatdırıb. O, yerlərdə yaradılmış idman infrastrukturundan paralimpiyaçıların səmərəli istifadə etmələrinin vacibliyini bildirib.

Layihənin rəhbəri, İctimai Birliyin sədr müavini Zöhrab Babayev görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, Bakı şəhərində, Abşeron, Şəki və Qəbələ rayonlarında paralimpiyaçı idmançıların iştirakı ilə oxatma üzrə səfər turları təşkil olunub, tarixi abidələr ziyarət edilib. Layihənin məqsədi fiziki məhdudiyyətli vətəndaşların cəmiyyətə və idmana inteqrasiyasına dəstək olmaq, tarixi-mədəni abidələrimizi tanıtmaq üçün bölgələrə gəzintilər reallaşdırmaq, paralimpiya idman növlərini təbliğ etmək və regionlarda yaşayan fiziki məhdudiyyətli gənclərin paralimpiya idmanına cəlb olunmasına şərait yaratmaqdır.

Müzakirələrdə AMPK-nin baş katibi Kamal Məmmədov, İstedadlı Əlillər İctimai Birliyinin rəhbəri Cavad Qasımov, Komitənin oxatma idman növü üzrə baş məşqçisi İlqar Abbasov və digərləri çıxış edərək görülən işləri yüksək qiymətləndiriblər.

# Nazirliyin əməkdaşları güllə atıcılığı yarışlarında sərrastlıqlarını sınayıblar

***Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşları arasında güllə atıcılığı üzrə birincilik keçirilib.***

Nazirliyin atıcılıq tirində keçirilən yarışın əvvəlində DİN İdman Cəmiyyətinin sədr müavini, polis polkovniki Elçin Rüstəmov çıxış edərək ümummilli lider Heydər Əliyevin qətiyyəti nəticəsində dövlətçiliyin qorunub saxlanması, sabitliyin bərqərar olmasında hüquq-mühafizə orqanlarının xidmətlərini vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycan polisinin xalqa sədaqətlə xidmət etməsi, öz vəzifələrini daim ləyaqətlə yerinə yetirməsinin nəticəsi olaraq hazırda ölkəmiz regionda, həmçinin Şərqi Avropada cinayətlərin sayının azlığı, sabitliyin etibarlı təmini baxımından ən yaxşı göstəriciyə malik dövlətlərdəndir.

İdman təlimi bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov "Polis haqqında" və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunları ilə bağlı tədbir iştirakçılarına məlumat verərək, qanunvericilikdən irəli gələn tələblər barədə iştirakçıları məlumatlandırıb, yarışın qaydaları və təhlükəsizlik tədbirlərini izah edib. Sonra yarışa start verilib.

Ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən, ümumilikdə 11 komandadan 80 əməkdaş müxtəlif hərəkətlər üzrə sərrastlıqlarını sınayıblar.



Gərgin keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ), Əlahiddə Çevik Polis Alayı və DİN Daxili Qoşunlarının Baş İdarəsinin komandaları qərarlaşıb.

Yarışın proqramına daxil olan tabel silahından atəş açmaqda birinci xüsusi tapşırığın yerinə yetirilməsində qadınlar arasında Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşı Fəqanə Kərimova fərqlənib, bu nəticə ilə o, 6-cı dəfə DİN birinciliyinin qalibi olub.

İkinci xüsusi tapşırığın yerinə yetirilməsində Əlahiddə Çevik Polis Alayının əməkdaşı Kəmalə Məhəddinova daha çox xal toplaya bilib.

BDYPİ-nin təmsilçisi Elməddin Əliyev də birinci və üçüncü tapşırıqları müvəffəqiyyətlə yerinə yetirərək fəxri kürsünün ilk pilləsinə qalxıb. Kişilər arasında altıncı xüsusi tapşırığın yerinə yetirilməsində BDYPİ-nin əməkdaşı Pərviz Tağıyev ən yüksək nəticəni göstərib.

Kişilər arasında keçirilən avtomatdan hədəfi nişan almaqda BDYPİ-nin daha bir əməkdaşı Xaləddin Zeynalov da rəqiblərini qabaqlayaraq bu yarışda qələbə qazanıb.

Yarışın idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Seymur Qurbanbəyov, Ehtiram Babayev, polis mayoru Aydın Həşimov və Dəyanət Ağayev iştirak ediblər.

Sonda qaliblərə medallar, diplomlar, fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

***İnsan fəaliyyətinin elə sahələri var ki, müasir dövrdə digərləri ilə müqayisədə, daha çox inkişaf edib. Bir sıra ölkələrdə elmi-texniki tərəqqinin səviyyəsindən asılı olmayaraq, bu sahələrin inkişafına böyük həcmdə sərmayə qoyulur, təbliği üçün müxtəlif planlar həyata keçirilir. Belə sahələrdən biri də idman və bədən tərbiyəsidir. Artıq əksər insanların gündəlik həyatında mühüm rol oynayan idman sağlamlığın rəhni olmaqla yanaşı, həm də maddi qazanc və mənəvi rahatlıq gətirir.***








# Oyundan qələbəyə, mübarizədən gələcəyə

## İdman nədir?

İdman (“sport”) ingilis dilindən tərcümədə “oyun”, “əyləncə” deməkdir. Bu sözün ilk variantı “disport” olub. İdman və bədən tərbiyəsi insanın fiziki və intellektual fəaliyyətinin xüsusi növüdür. Həyatını bu sahə ilə bağlayan idmançıların, elmi araşdırmalarla məşğul olan mütəxəssislərin ümumi rəyinə əsasən, demək olar ki, idman insanların müəyyən qaydalarla həyata keçirilən fəaliyyətidir. Belə fəaliyyət zamanı onların fiziki və intellektual imkanları biri-birinə qarşı qoyulur, bu proses nəticəsində isə insanların hərtərəfli hazırlıq səviyyəsi meydana çıxır. Bütün bunlar yarış məqsədilə həyata keçirilir. Beləliklə, idman insanın fiziki qabiliyyətinin artırılması, qrup və ya fərdi mübarizədə yüksək nəticələrin əldə edilməsi, mənəvi rahatlıq və maddi gəlirin qazanılması məqsədilə həyata keçirdiyi məşq və istirahət elementlərini özündə birləşdirən fəaliyyətidir.

## Oyun necə yaranıb?

Bu barədə mübahisələr hələ də davam edir. Fiziki qabiliyyətin (əməyin), oyunun, yaxud hər hansı ritualın birinci yaranması barədə faktlar hələ də müzakirə obyektidir. İdmanın özü də oyundur. Bu mübarizədə qalib və məğlublar olur, sevinc və məyusluq hissi keçirirlər. İnsanın taleyində mübarizə böyük rol oynayır. Qeyd edək ki, fəlsəfə və psixologiyanın toxunduğu məsələlər içərisində mübarizə və idmanın xüsusi yeri var. Bütün canlılar yaşamaq üçün mübarizə aparır, bir növ, yarışırlar. Şübhə yoxdur ki, yeni yaranan oyunun öyrənilməsi və təbliği düzgün formada həyata keçirilməlidir. İnsan müəyyən keyfiyyətləri, o cümlədən özündə hiss etdiyi hər hansı qabiliyyəti ortaya çıxarmaq üçün digərləri ilə yarışmalıdır. Bunu başa düşən qədim yunan alimi Platon (e.ə. 427-347) yazırdı: “Hər hansı bir işdə uğur əldə etmək üçün erkən yaşdan həmin sahə ilə maraqlanmalısan. Məsələn, əgər yaxşı bənna və ya inşaatçı olmaq istəyirsənsə, uşaqlıqdan torpağı əkib-becərməli və ya torpaqda nə isə tikməlisən”.

Oyun adi həyat deyil. Bu, insanın müvəqqəti fəaliyyətidir. Elmi baxımdan yanaşsaq, görərik ki, mübarizə tələb edən oyunun aşağıdakı xüsusiyyətləri var: 1) nəticədən asılı olmayaraq, həzz almaq üçün, yaxud arzu nəticəsində həyata keçirilən fəaliyyət; 2) öz xarakterinə görə yaradıcı və aktiv fəaliyyət; 3) emosional baxımdan gərgin, müsabiqə və yarış xarakteri daşıyan fəaliyyət; 4) oyunun məzmununu özündə əks etdirən və müəyyən qaydalar çərçivəsində həyata keçirilən fəaliyyət; 5) görüntü (imitasiya) xarakteri daşıyan fəaliyyət; 6) müəyyən ərazidə və müəyyən müddət ərzində keçirilən fəaliyyət; 7) oyunun keçirilməsi üçün müəyyən şərait olmalıdır.



## İdman ta qədimdən insan fəaliyyətinin bir hissəsinə çevrilib

İdmanın inkişafı cəmiyyətdə baş verən hadisələrlə sıx bağlıdır. Hələ ibtidai icma quruluşu dövründə insanlar idmana bənzər fəaliyyət növü ilə məşğul olublar. Bunu, dövrümüzə qədər gəlib çatan maddi sübutlar da təsdiq edir.

Avropa və Afrikada tapılmış qayaüstü rəsmlər hələ 300 min il bundan əvvəl qədim insanların idmanı xatırladan fəaliyyət və rituallarla məşğul olduqlarını göstərir. Mezolit (orta daş) dövründə ağıllı adamlar ağac budaqlarının əyilməsini müşahidə edərək, ondan kaman və ox düzəltmək üçün istifadə ediblər. Bu, insanların ov əldə etməsi və qidalanmasına xidmət edirdi. Sonralar insanlar ox və kamandan ayrı-ayrı məqsədlər üçün, xüsusilə yarışlar təşkil etmək üçün də istifadə etməyə başladılar. Bu fakt göstərir ki, kamandan oxatma idman növünün yaranması qədim dövrə təsadüf edir.

Çin ərazisində hələ b.e.ə. 4 min il əvvəl inşa edilmiş və müasir idman meydançalarını xatırladan tikililər var. Tapılmış maddi sübutlar göstərir ki, gimnastika qədim Çində ən populyar idman növü olub. Burada ayrı-ayrı mərasimlərdə xüsusi bacarığa malik insanlar öz fitri istedadlarını göstəriblər. Qədim dövrdə Çində insan orqanizminin xüsusi plastikaya malik olması dəqiqləşib. Şərq əlbəyaxa döyüş idman növlərinin də bu ölkədə təşəkkül tapması təsadüfi deyil.

Fironların ehramları və sərdabələrdən tapılan maddi sübutlar bir neçə min il bundan əvvəl Misirdə müxtəlif idman növləri, o cümlədən üzgüçülük və balıqçılığın (yarış kimi) inkişaf etdiyini göstərir. İran ərazisində polo və atçılıq kimi idman növlərinə böyük maraq olub.

Qədim Yunanıstanda idmanın müxtəlif növləri üzrə yarışlar keçirilib. İnsanlar hələ qədimdən burada güləş, qaçış və diskatma üzrə yarışlarda iştirak ediblər. Döyüş arabaları (araba 4 atla sürülürdü) ilə təşkil edilən yarışlar bu ölkədə hərb sənətinin idmanla sıx bağlı olduğunu təsdiq edir. Təsadüfi deyil ki, hər 4 ildən bir burada Olimpiya oyunları keçirilirdi. Bu oyunlar Olimpiya yaxınlığındakı Pelopennes kəndində təşkil edilirdi. Həmin yarışlarda ən güclü yunan idmançıları müxtəlif növlərdə qüvvələrini sınayırdılar. Yarışların ən təhlükəlisi döyüş arabalarının sürətlə ötüşməsi idi. Qəbul edilmiş qaydaya əsasən, hər bir araba cıdır meydanında 12 dövrəni müəyyən vaxt ərzində heç bir maneəyə toxunmadan keçməli idi. Bu, çox vaxt böyük faciələr hesabına baş verirdi. Yüksək sürətlə məsafə qət edən döyüş arabası maneəyə toxunduğu vaxt aşır, digər araba isə onun üzərindən keçirdi. Bu, nə qədər qorxunc görünsə də, tamaşaçılara xüsusi zövq verirdi. 5 gün davam edən Olimpiya oyunlarında idmançılar allahlara qurbanlar verir, ədalətli olacaqlarına and içir, hakimlər isə yarışları qaydalar çərçivəsində idarə edəcəklərinə söz verirdilər. Qədim Yunanıstanda formalaşan və bu günümüzə qədər gəlib çıxan idman növləri hazırda daha da təkmilləşib və formalaşmış qaydalar əsasında keçirilir.

## Dahilər nə düşünürlər?

Həyatımızın ayrı-ayrı sahələrində insanlar yarışırlar. Yarışda qalib gələnlər özlərini xoşbəxt saymaqla yanaşı, çəkdikləri əziyyətin fayda verəcəyini düşünürlər. Gəlin, iki müxtəlif sahədə çalışan insanların fəaliyyətinə nəzər salaq. Bir müəssisədə yeni işə qəbul olunan işçi öz gələcəyini rəhbər vəzifəyə yiyələnməkdə görür. Bu, mübarizə, həm də həmin şəxsin əsas məqsədidir. Digər misal: Bir gənc çıxış etdiyi idman növündə ilk addımlarını atır. O, yüksək nəticələr əldə edən idmançıları özü üçün örnək hesab edir. Ən böyük arzusu Olimpiya, dünya və ya Avropa çempionu olmaqdır. Vaxt keçdikcə fiziki imkanları onun bu istəyini reallığa çevirir. Deməli, ta qədimdən oyun insan həyatının bir hissəsinə çevrilib. Oyunda qalib gəlmək üçün mütləq mübarizə aparmaq lazımdır. Oyun uşaqların da həyatında böyük rol oynayır. S.L.Rubinşteynin (1976) fikrincə, oyun uşaqların böyüməsi və onların həyata baxışında vacib əhəmiyyətə malikdir. Pedaqoq A.S.Makarenko yazırdı ki, gələcəyin böyük xadiminin tərbiyə edilməsi, sanki oyundakı kimidir, bu işə uşaq yaşlarından başlamaq lazımdır.

İngilis dramaturqu V.Şekspir isə insan üçün oyunun böyük əhəmiyyət daşıdığını, onun hər zaman insanları özünə cəlb etdiyini qeyd edirdi. Böyük dramaturqun fikrincə, bütün dünya teatr, insanlar isə aktyordurlar.

## Milyonlarla gəlir gətirən sahə

Hər bir idman növünün özünəməxsus ənənələri və azarkeşləri var. Müasir dövrdə asudə vaxtlarını səmərəli keçirmək istəyənlər ya özləri idmanla məşğul olur, ya da ki hər hansı idman yarışını izləməyə üstünlük verirlər. Bu zaman insan xüsusi zövq alır, mənəvi rahatlıq tapır və sağlamlığını möhkəmləndirir. Digər tərəfdən, insan bu yolla uzun müddət həllinə nail ola bilmədiyi problemləri həll edə, müəyyən xəstəlikləri aradan qaldıra bilər. Qazanılan qələbə idmançı, məşqçi və azarkeşlərə xoşbəxt anlar yaşadır. Hazırda idmanın peşəyə çevrilməsi onun insanlar arasında daha da populyar olmasına imkan yaradıb. Müasir insanlar üçün idmançıların fəaliyyətini və müxtəlif yarışları izləmək bədən tərbiyəsi mədəniyyətinin bir hissəsidir, desək, yanılmarıq. İdman sərhəd tanımır. Peşəkar idmançılar böyük qonorar alır, müxtəlif sənaye mallarını reklam edir və fərqli ölkələrin əhalisi arasında böyük rəğbət qazanırlar. Peşəkar idmanda baş verən hadisələri nizama salmaq, yarışların keçirilməsini təmin etmək üçün müxtəlif təşkilat və assosiasiyalar yaradılıb. Bu qurumlar idmançıları, hakimlər və məşqçiləri bir bayraq altında birləşdirir.

Müasir idman növləri o qədər inkişaf edib ki, artıq bəzi adamlar ondan öz məqsədləri üçün də istifadə edirlər. İdmanın milyonlarla gəlir gətirməsi bəzən xoşagəlməz hallarla da müşayiət olunur. Bəzi idman növlərinin qaydalarında edilən dəyişikliklər və hakim ədalətsizliyi buna misal ola bilər.

## Həyatın özü bir oyundur

Müasir dövrü idmansız təsəvvür etmək mümkün deyil. Ümumiyyətlə, həyatın özü oyuna (idmana) çevrilib. Bu sahədə KİV, xüsusilə televiziya kanalları mühüm rol oynayır. Müxtəlif TV proqramlarındakı intellektual oyunlar və müsabiqələr insanı hər zaman yarışmağa və qələbəyə sövq edir. Hazırda müxtəlif idman növləri insan fəaliyyətinin mühüm hissəsidir. İnsanlar ən müxtəlif sahələrdə özlərinin müxtəlif keyfiyyətlərini ortaya çıxarmaq üçün bir-birilər ilə yarışırlar.

*Anar Əhmədov*

*Olimpiya mükafatçılarımız*

# “Azərbaycanın idman tarixinə düşmək mənim üçün çox qürurvericidir”



***Ötən ay paytaxtımız daha bir beynəlxalq idman bayramına, XV Avropa Gənclər Olimpiya Festivalına uğurla ev sahibliyi etdi. “Zirvələrə hazırıq” devizi altında keçirilən mötəbər idman tədbirində 122 idmançı ilə təmsil olunan Azərbaycan komandası 10 qızıl, 7 gümüş və 6 bürünc medal qazanaraq, 48 ölkə arasında 4-cü yeri tutdu. Bakı-2019-da qazanılan medallardan 6-sı cüdoçularımızın payına düşdü. Heydər Əliyev adına İdman Arenasında keçirilən festivalın cüdo yarışlarında 12 (8 oğlan, 4 qız) idmançı ilə təmsil olunan komandamız 2 qızıl, 1 gümüş və 3 bürünc medala sahib çıxdı.***



Yığmamız bu nəticə ilə komanda hesabında üçüncü yeri yeri tutdu. Oğlanların komanda hesabında isə cüdoçularımız birinci pillədə qərarlaşdılar. Festivalda qızıl medal qazanan cüdoçulardan biri də +90 kq çəki dərəcəsində mübarizə aparan Hüseyn Məmmədovdur. “Judo Club 2012”nin üzvü olan Hüseyn son illərdə ən ağır çəkidə medal qazanan yeniyetmə cüdoçu kimi adını Azərbaycanın idman tarixinə qızıl hərflərlə yazdırdı.

Gəlin, ağır çəkili cüdoçumuzu daha yaxından tanıyaq. 2002-ci il martın 15-də Bakı şəhərində anadan olan Hüseyn 8 yaşından cüdo idman növü ilə məşğul olmağa başlayıb. Respublika çempionatının ikiqat qalibi olan H.Məmmədov 2014-cü ildə Sankt-Peterburqda keçirilən beynəlxalq turnirin qalibi olub. İstedadlı cüdoçumuz ötən il Mərakeşdə təşkil olunan Afrika Kubokunda gümüş medal qazanıb. Bu ili də ağır çəkili pəhləvanımız üçün uğurlu hesab etmək olar. Belə ki, ilin əvvəlində, İspaniyanın Fuengirola şəhərində təşkil olunan Avropa Kubokunda 3-cü olan Hüseyn iyun ayında Polşada keçirilən Avropa birinciliyində bürünc medala sahib çıxıb.

Bu yaxınlarda istedadlı cüdoçumuz Hüseyn Məmmədovla redaksiyamızda görüşdük. Müsahibimizlə söhbət zamanı onun idmana gəlişi, Bakı-2019-da keçdiyi zəfər yolu, sevinc hissləri və gələcək planları barədə danışdıq.

***- Hüseyn, istərdik ki, söhbətimizə idmana gəlişin barədə başlayaq. Nəyə görə məhz cüdo idman növünü seçdin?***

- İdmanla 8 yaşımdan məşğul oluram. Cüdonu seçməyimin əsas səbəbkarı qonşumuz, cüdo üzrə yığma komandamızın üzvü Hidayət Heydərov olub. O, bir gün atama məni cüdo bölməsinə yazdırmağı məsləhət gördü. Həmin vaxtı Hidayət yeniyetmələr arasında Avropa çempionu adını qazanmışdı. Məhəllədə hər kəs Hidayətin uğurlarını görür, onun qələbələrindən danışırdı. O, bir növ, məhəlləmizdəki uşaqlara nümunə idi. Onu da qeyd edim ki, Hidayət Heydərov məndən beş yaş böyükdür. Beləcə, atam məni “Kanokan TT” cüdo idman klubuna yazdırdı. Burada Azərbaycanın Əməkdar məşqçisi Tərlan Həsənovun rəhbərliyi altında cüdonun sirlərinə yiyələnməyə başladım. Düzünü desəm, əvvəllər idmana heç həvəsim yox idi. Məşqlərə də həvəssiz yanaşırdım. Özümü isə ümumiyyətlə gələcəkdə cüdoçu kimi təsəvvür etmirdim.

***- Bəs bu idman növünə qarşı səndə sevgi necə yarandı?***

- Tez-tez arenalara cüdo yarışlarını izləməyə gedirdim. Çalışırdım ki, özümdən böyük idmançıların keçirdiyi görüşləri diqqətlə izləyim, onların icra etdikləri fəndləri mənimsəyim. Beləcə, yarışları izləyərək cüdoya olan həvəsim artdı. Cüdonu sevməyimdə digər bir amil isə şəxsi məşqçim Tərlan Həsənovla bağlıdır. Məhz onun səbri, qətiyyəti, peşəkarlığı və əsl müəllimlik bacarığı məndə cüdoya böyük sevgi yaratdı. 2011-ci ildən məşqlərimi Tərlan müəllimin rəhbərliyi altında “Judo Club 2012”də davam etdirməyə başladım. Artıq məşqlərə əvvəlki kimi, həvəssiz yanaşmırdım. Çalışırdım ki, hər bir hazırlıqda məşqçimin verdiyi tapşırıqları düzgün şəkildə yerinə yetirim. Sonralar iştirak etdiyim hər bir yarışda medal qazanmağa başladım. Bu qələbələr məndə özümənam hissini bir qədər də artırdı. Düşünürdüm ki, məşqlərə daha çox can yandırsam, gələcəkdə böyük yarışlarda da nailiyyətlər qazana bilərəm. Əvvəlcə, Bakı, sonra isə respublika çempionu oldum. Bundan sonra nailiyyətlər bir-birinin ardınca gəlməyə başladı. Bu il İspaniyada təşkil olunan Avropa Kubokunda bürünc medal qazandım. İyun ayında isə Polşada keçirilən yeniyetmələr arasında Avropa birinciliyində üçüncü yeri tutdum.

***- Hər bir yeniyetmə və gəncin gələcəklə bağlı arzuları olur. Bəs, idmana həvəssiz başlayan Hüseyn özünü gələcəkdə hansı peşənin sahibi kimi görmək istəyirdi?***

- Əvvəllər dərs oxumağa daha çox həvəsim var idi. Düzdür, əlaçı olmasam da, dərslərimi yaxşı oxuyurdum. Qiymətlərim də yaxşı idi. Əvvəllər “Neftçilər” metrosu ərazisində yerləşən 214 saylı orta məktəbdə təhsil alırdım. Hazırda isə 277 saylı iməktəbində təhsil alıram. Fənnlər arasında əsasən, Azərbaycan dili fənnini sevirdim. Elə özümü də gələcəkdə məhz müəllim kimi görürdüm. Lakin görünür, qismətim cüdoçu olmaq imiş.

***- Avropa Gənclər Olimpiya Festivalında komandamıza qızıl medal qazandırdın. Çempionluğa gedən yolu necə xatırlayırsan?***

- Düzünü desəm, çempion olacağımı gözləmirdim. Bu yarışdan bir ay əvvəl Polşada keçirilən Avropa birinciliyində bürünc medal qazanmışdım. Bu səbəbdən də festivalda bürünc medal qazanacağımı düşünürdüm. Rəqiblərim demək olar ki, qitə çempionatında qarşılaşdığım cüdoçular idilər. İlk görüşdə ehtiyat etdiyim rəqiblərdən almaniyalı Daniel Udsilauri ilə qarşılaşdım. Gərgin keçən mübarizədən sonra rəqibimə qalib gəldim. Ümumiyyətlə Bakı-2019-da keçirdiyim görüşlər arasında ən çətini birinci və final görüşüm oldu. Ən çox həyəcanı da elə birinci görüşdə keçirmişdim. Çünki bütün idmançılar kimi, mən də ilk görüşdə məğlub olmaqdan çəkinirdim. İstəmirdim ki, uduzaraq, işimi çətinə salım. Qələbəmdə azarkeşlərin dəstəyi də çox böyük rol oynadı. Fürsətdən istifadə edib, arenada məni dəstəkləyən hər kəsə təşəkkürümü bildirirəm. Onların etimadını doğrultduğum üçün çox sevinirəm.

***- Finala çıxmaqla ən azı gümüş medalı özün üçün təmin etmişdin. Bu, səndə arxayınlıq yaratmadı?***

- Xeyr. Finala çıxandan sonra ikinci yerlə razılaşmırdım. Mən həmişə gümüş medaldansa, bürünc medalı daha üstün tuturam. Finala çıxdınsa, gərək çempion olasan. Qızıl medalın bir addımlığında məğlub olmaq idmançıya daha pis təsir edir. Özü də doğma azarkeşlərin gözü qarşısında. Azarkeşlər arenada məni möhtəşəm dəstək verirdilər. Həmin azarkeşlərin önündə finalda uduzmağı özümə sığışdırmırdım. Təsəvvür belə etmək istəmirdim ki, bu qədər azarkeş dəstəyinin içində rusiyalı idmançı çempion olsun. Rəqibim həlledici görüşə özündən razı şəkildə çıxmışdı. Mənə qalib gələcəyini düşünürdü. Lakin istəyinin gerçəkləşməsinə icazə vermədim.

***- Sevinc hisslərini ilk olaraq kimlərlə bölüşdün?***

- Məşqçilərim və atamla. Atam arenadan görüşümü izləyirdi. Təbii ki, mən də məğlub olaraq onu məyus etmək istəmirdim. Avropa Gənclər Olimpiya Festivalında qazandığım qələbəni atama həsr edirəm. Ən çox atam üçün çalışıram. O, bütün günü keçirdiyim görüşlərin videolarını izləyir, mənə məsləhətlərini verir. Mənə çox inanır. Atamın mənimlə fəxr etməsi və dəstək olması mənim üçün qazandığım bütün qələbələrdən üstündür. Növbəti yarışlarda da çalışacağam ki, qələbə qazanaraq, atamın etimadını doğruldum.



***- Bakı-2019-da qazandığın qızıl medal sənin üçün nəyi ifadə edir?***

- Bu medalın dəyəri mənim üçün çox böyükdür. Demək olar ki, Avropa birinciliyindəki rəqiblərlə qarşılaşdım. Bu qələbə özümənam hissini daha da artırdı. Necə deyərlər, qələbə gələcək yarışlar üçün bir təkan oldu. Bu medal mənim üzərimə həm də böyük məsuliyyət qoyur. Növbəti yarışlarda potensialımdan zəif çıxış etməli deyiləm. Bütün məşqçilərim məndən yeni qələbələr gözləyirlər. Çalışacağam ki, gələcəkdə fiziki hazırlığımı artıraraq, nəticələrimi daha da yaxşılaşdırım.

***- Avropa Gənclər Olimpiya Festivalından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə pul mükafatı ilə təltif olundun. Bu, sənin ilk qonararın idi.***

- Bəli. Bu Sərəncama görə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə minnətdarlığımı bildirirəm. Bu, mənim qazandığım ilk böyük qonarar idi. Bunun üçün də həmin məbləği atama verdim. Fürsətdən istifadə edib mənə yaratdıqları şəraitə və göstərdikləri dəstəyə görə Azərbaycan Cüdo Federasiyasına və təmsil olunduğum “Judo Club 2012”nin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

***- Avropa Gənclər Olimpiya Festivalının bağlanış mərasimində komandamızın bayraqdarı oldun. Bu necə hiss idi?***

- Bu yarış mənim üçün unudulmaz anlarla yadda qaldı. Həm çempion, həm də bağlanış mərasimində komandamızın bayraqdarı oldum. Bayraqdar olmaq qürurverici hissdir. Azərbaycanın bayrağını dalğalandırdığım üçün çox sevinirəm. Çalışacağam ki, həmişə bayrağımızı uca tutum, himnimizi səsləndirim. İdmançı üçün bundan gözəl hiss ola bilməz.

***- Bakıdakı festialda çempion olmağında doğma azarkeş amili böyük rol oynadı, yoxsa hazırlıq səviyyən yaxşı idi?***

- Əslində Avropa birinciliyində də çempion ola bilərdim. Lakin yarımfinalda gürcüstanlı Giqa Tatiaşvili ilə görüşdə çox səhv etdim. Bu səhvlər mənə baha başa gəldi. Sualınıza cavab olaraq hər iki versiya ilə razılaşıram. Yarışa çox güclü hazırlaşmışdım. Havaların isti olmasına baxmayaraq, hər gün məşqlərdə bacardığım qədər fiziki, texniki və taktiki hazırlıq səviyyəmi yaxşılaşdırmağa çalışırdım. Azarkeş dəstəyi də, həqiqətən, möhtəşəm idi. Bundan əlavə, çalışdım ki, bir ay əvvəl Polşada etdiyim səhvləri bu yarışda təkrarlamayım.

***- Çıxış etdiyin ən ağır çəkidə hər zaman perspektivli idmançılarımız az olub. Demək olar ki, bu problem böyüklərdən ibarət yığma komandamızda da özünü göstərir. Sənin timasalında isə Azərbaycan cüdosu yeni bir ağır çəkili pəhləvan qazanmış oldu.***

- Polşada keçirilən Avropa çempionatında qazandığım bürünc medal mənim üçün əlamətdar oldu. Bildiyimə görə, yeniyetmələrin Avropa çempionatında Azərbaycan komandasının aktivində son 15 il ərzində ən ağır çəkidə medal olmurdu. Uzun müddətdən sonra ağır çəkidə bürünc medalı ölkəmizə məhz mən qazandırdım. Ağır çəkili idmançı kimi Azərbaycanın idman tarixinə düşmək mənim üçün çox qürurvericidir. Çalışacağam ki, gənclər və böyüklər arasında yarışlarda da uğurlarımı davam etdirim və ölkəmizə medallarla qayıdım.

***- Ağır çəkidə güləşməyin sənin üçün çətinlikləri varmı?***

- Hazırda 125 kq çəkim var. Bunun üçün də yarışlarda +90 kq-da, yəni ən ağır çəkidə mübarizə aparıram. Bildiyiniz kimi, ağır çəkili idmançılarda nəfəs almaq ən vacib amillərdən biridir. Ağır çəkili idmançılar bu problemə görə tez yorulurlar. Bunun üçün çalışıram ki, çox qaçım, çox hərəkət edim. Hazırda nəfəs almaqla bağlı heç bir problemim yoxdur. Elə ağır çəkili idmançılar var ki, qızıl xal uğrunda görüşdə mübarizə aparmağa gücləri çatmır. Məndə isə belə bir problem yoxdur. Hətta Bakı-2019-un finalında qarşılaşdığım Ahmed Maqomedovla görüşün taleyini məhz qızıl xal uğrunda görüşdə həll etdim. Ümumiyyətlə, ağır çəkili idmançıların ayaqları həmişə zəif olur. Əgər gücün varsa, ağır çəkili rəqibini yıxmaq sənin üçün asan olacaq. Rəqiblərim arasında elələri var ki, 150-160 kq çəkiyə malikdirlər. Əgər çəkimi azaltsam, onlara gücüm çatmayacaq. Hazırda bu çəki mənim üçün idealdır. Bunun üçün də çalışıram ki, hazırkı çəkimi qoruyub, saxlayım. Gənclər və böyüklər arasında mübarizə aparsam, çalışacağam ki, çəkimi 5-10 kq daha artırım.

***- Hazırda sənin çəkində əsas rəqiblər kimlərdir?***

- Güclü rəqiblər çoxdur. Rəqiblərim arasında rusiyalı Nodar Onoprienko, Ahmed Maqomedov, gürcüstanlı Giqa Tatiaşvili və almaniyalı Daniel Udsilaurinin adlarını çəkmək olar. Bu cüdoçularla beynəlxalq arenalarda dəfələrlə üz-üzə gəlmişəm. Yetərincə güclü idmançılardırlar.

***- İdmanda əsas kumirin kimdir?***

- Fransalı cüdoçu Teddi Riner. O, cüdo üzrə dünya çempionatları tarixində ən titullu idmançıdır. İkiqat Olimpiya, beşqat Avropa, onqat dünya çempionudur. İştirak etdiyi yarışların böyük qismində qalib gəlib. O, yalnız iki dəfə, Pekin-2008 Yay Olimpiya Oyunlarının yarımfinalında və 2010-cu ildə Tokioda keçirilən dünya çempionatının finalında məğlub olub. Azərbaycanda isə kumirim yaxın dostum Hidayət Heydərovdur.



***- Gələn ay Almatıda dünya çempionatı keçiriləcək. Bu mötəbər yarışa hazırlıqlar necə gedir?***

- Bu mənim ilk dünya çempionatım olacaq. Yarışda daha güclü rəqiblər olacaq. Tək qitənin deyil, dünyanın ən güclüləri Almatıda çempionluq uğrunda mübarizə aparacaqlar. Əsas məqsədim dünya çempionatının qalibi olmaqdır. Düzdür, bu çətin görünür. Bunun üçün daha çox məşq etmək lazımdır.

***Azər Əlizadə***

Bölgə idmanı

## Xaçmaz Olimpiya Kompleksində kütləvi idman bayramı

Azərbaycandakı Olimpiya İdman Komplekslərinə cəlb olunan uşaq və yeniyetmələr dörd idman federasiyası tərəfindən pulsuz məşqçilik xidməti, geyim və ləvazimatlarla təmin oluna-



caq. Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülən bu təşəbbüsə Azərbaycan Cüdo Federasiyası da qoşulub. İlk kütləvi idman bayramı Xaçmaz Olimpiya İdman Kompleksində keçirilib. Tədbirin əvvəlində rayon idmançılarının nümunəvi çıxışları təqdim olunub. İdman bayramında Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov, Milli Məclisin komitə sədrləri Eldar İbrahimov, Ziyad Səmədzadə, millət vəkilləri İlham Əliyev, Xanhüseyn Kazımlı, Rauf Əliyev, Azər Badamov, Yevda Abramov, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov, Xaçmaz rayon rəhbərliyi və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Çıxış edənlər tədbirin əhəmiyyətindən, həmçinin ölkəmizdə idman sahəsində həyata keçirilən uğurlu dövlət siyasətindən danışıblar. Bildirilib ki, bu gün Azərbaycan dünyada nüfuzlu idman ölkəsi kimi tanınır. İdmançılarımızın istər ölkə daxilində, istərsə də respublikamızdan kənarda əldə etdikləri uğurlu nəticələr bunu bir daha təsdiqləyir. Azərbaycanın mötəbər idman yarışlarına uğurla ev sahibliyi etməsi də respublikamızın idman ölkəsi olduğunu sübut edir. Bu yarışların təşkili çoxlu sayda azarkeşin ölkəmizə təşrif buyurmasına, eyni zamanda, respublikamızda turizmin və iqtisadiyyatın inkişafına, Azərbaycanın dünyada daha da tanınmasına təkan verir. Çıxışlarda qeyd olunub ki, bu cür kütləvi idman tədbirləri uşaqların idmana olan marağını artırır, fiziki və mənəvi sağlamlığını təmin edir. Bayram tədbirinin sonunda tamaşaçılara tanınmış müğənnilərin ifalarından ibarət konsert proqramı təqdim olunub. Azərbaycan Cüdo Federasiyası tərəfindən rayon idmançılarına məşq üçün tatamilər və cüdoqilər təqdim olunub. İlk dəfə Xaçmazda keçirilən idman bayramının respublikamızın digər bölgələrindəki bütün Olimpiya idman komplekslərində təşkili nəzərdə tutulub.

* * *

Qax Olimpiya İdman Kompleksində Azərbaycan Respublikasının Əməkdar məşqçisi Nəsrullah Məmmədovun xatirəsinə həsr olunmuş



yeniyetmələr arasında sərbəst güləş üzrə şəhər və rayonlararası turnir keçirilib.

Yarışda Gəncə şəhərini, Ağdam, Şəki, Oğuz, Balakən, Zaqatala və Qax rayonlarını təmsil edən 164 yeniyetmə güləşçi iki yaş qrupu üzrə 11 çəki dərəcəsində mübarizə aparıb.

Turnirin açılış mərasimində Qax rayon Gənclər və İdman İdarəsinin rəisi Əlövsət Bayramov, yarışın fəxri qonağı - Olimpiya kateqoriyalı, beynəlxalq dərəcəli hakim, Əməkdar məşqçi Hicran Şərifov, Qax Olimpiya İdman Kompleksinin direktoru Rasim Məmmədov və başqaları çıxış edərək, ölkəmizdə idmanın inkişafına göstərilən yüksək dövlət qayğısından danışıb, idmançılara uğurlar arzulayıblar.

Yarışların baş hakimi Məmməd Qasımov olub.

Xatirə turnirinin yekununda hər çəki dərəcəsi üzrə fərqlənən idmançılar mükafatlandırılıblar.

* * *

Bərdə Olimpiya İdman Kompleksində Beynəlxalq Gənclər Gününə həsr olunmuş kyokuşin karate üzrə rayon birinciliyi keçirilib. Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən yarışda 6 şəhər və rayondan 76 nəfər



idmançı iştirak edib. Tədbirin açılışında çıxış edən Gənclər və İdman İdarəsinin rəis müavini Aydın Qasımov Beynəlxalq Gənclər Gününün təsis edilməsindən, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışıb.

Birincilik yarışın baş hakimi Pərviz Rəsulovun rəhbərliyi ilə 5 nəfərdən ibarət hakimlər heyəti tərəfindən idarə edilib. Gərgin mübarizə şəraitində keçən yarışın sonunda qalib idmançılar müxtəlif dərəcəli diplom və medallarla təltif olunublar.

* * *

Astaralı idmançılar Boks və Kikboksinq idman növləri üzrə yarışlardan qələbə ilə qayıdıblar.

Avqustun 15-16-da İran İslam Respublikasının Ləvəndəbir şəhərində boks üzrə beynəlxalq




turnir keçirilib. Yarışda astaralı boksçulardan ibarət komandanın üzvlərindən İbrahim Məmmmədov (81 kq) qızıl medala sahib çıxıb. Şahlar Rzayev (65 kq), Nurlan Əlizadə (60 kq), Hüseyn Həsənzadə (35 kq) isə gümüş mükafata layiq görülüblər.

Avqustun 17-18-də İmişli şəhərində şəhidlərin xatirəsinə həsr olunmuş kikboksinq üzrə açıq birincilik keçirilib. Birincilikdə astaralı idmançılar da iştirak ediblər. Yarışda Astaranı təmsil edən Hüseyn Həsənzadə (35 kq) və Şahlar Rzayev (65 kq) çempion adı qazanıblar.

Qarabağ idmanı

# Həyatını idmana həsr edən mütəxəssis

***Artıq bir neçə müddətdir ki, "Olimpiya dünyası" qəzeti öz sadiq oxucularına "Qarabağ idmanı" rubrikası altında maraqlı yazılar təqdim edir. Qarabağın adlı-sanlı idmançıları və mütəxəssisləri barədə yazılar geniş oxucu kütləsinin marağına səbəb olub. Bu sayımızda idmanın əksər növlərində uğur qazanmış idmançıdan, illərdən sonra böyük təcrübə toplamış mütəxəssisdən bəhs edəcəyik. Onun tərcümeyi-halı maraqlı və zəngindir. Yazının qəhrəmanı Çingiz Məhərrəmovdur.***



O, 1940-cı il iyulun 18-də Xankəndində anadan olub. İbtidai sinifə Xankəndindəki Nizami adına 4 nömrəli orta məktəbdə başlayan Çingiz sonralar (1952-ci ildə) ailə vəziyyəti ilə əlaqədar təhsilini Şuşa 1 nömrəli orta məktəbində davam etdirmişdir. Çingiz məktəb illərində idmana daha çox maraq göstərirdi. Onu həmyaşıdlarından çəldlik və çevikliyinə görə fərqləndirirdilər. Məktəb yaşlarında atletikanın qısa məsafələrinə (60,100,200 metr) qaçış, futbol və güləşlə ilə məşğul olurdu. Arabir məhəllə yoldaşları ilə "Səkili" bulağına, "Daşaltı" çayına çimməyə gedər, üzməyi öyrənərdilər. Çingiz Məhərrəmov orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağrılıb. Həmin ərəfədə Çingiz sərbəst güləş üzrə (52 kq) Şuşa çempionu və Dağlıq Qarabağ Muxtar Vilayətinin mükafatçısı olub.

Çingiz hərbi xidmətini (1959-1962-illər) Ukraynanın Qomel və Rovno şəhərlərində keçirib. 1961-ci ildə Ukrayna Ordu İdman Klubunun birinciliyində sərbəst güləş üzrə (52 kq) gümüş medala layiq görülüb. Həmin yarışda I dərəcəli güləşçi normasını yerinə yetirərək Federasiyanın fəxri fərmanı ilə mükafatlandırılıb. Eyni zamanda o, bu nəticəyə görə vaxtından əvvəl məzuniyyətə buraxılıb. Çingiz həmin il Pribaltika Ordu İdman Klubunun açıq birinciliyində Ukraynanı təmsil edərək, yığma komandanın tərkibində fərqlənib. Şuşalı idmançı idmanda qazandığı nailiyyətlərə görə ona xidmət müddətində ali təhsil almaq imkanı da verilib. O, idmana böyük həvəsi olduğu üçün Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu seçib, həmin ali məktəbin tələbəsi olub. Təhsil dövründə ixtisas kimi futbol növünü seçib. Tələbəlik illərində məşhur futbolçu Ələkbər Məmmədovun bölməsində məşğul olub. İnstitutu bitirdikdən sonra bir qədər Xırdalan qəsəbəsində müəllimlik və məşqçilik edib. Tezliklə o, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda Bədən tərbiyəsi kafedrasında müəllim vəzifəsinə təyin olunur. Məşhur futbolçu Əməkdar idman ustası Ələkbər Məmmədovun zəmanəti ilə Çingiz "Neftçi" idman klubunun bazasında gənc yaş qrupunda məşqçi təyin edilib. O, bu etimadı layiqincə doğrultmuşdu. Çingiz Məhərrəmov 1972-1974-cü illərdə ailə vəziyyəti ilə bağlı bir müddət Bərdə şəhərində yaşayıb və ixtisası üzrə fəaliyyət göstərib. Şuşalı mütəxəssis burada "Pambıqçı" komandasına güclü futbolçular hazırlayıb. Eyni zamanda Bərdə uşaq futbolunun inkişafında onun böyük rolu olub. Bir müddətdən sonra o, yenidən Bakı şəhərinə qayıdaraq və Bakı Bədən Tərbiyəsi Texnikumunda gənc idmançıların, bədən tərbiyəsi mütəxəssislərinin hazırlanması ilə məşğul olub. Çingiz, eləcə də, Sabunçu rayonunun Uşaq Gənclər İdman Məktəbində futbol üzrə məşqçi- müəllim işləyib. Çingiz Məhərrəmov insani keyfiyyətləri ilə kollektivdə böyük nüfuz sahibi olub.

Doğma el-obasının yağı tapdağı altında qalması, 1992-ci il mayın 8-də Şuşanın işğalı onu çox pis sarsıtmışdı. Ürəyində problem əmələ gəlmişdi. O artıq məşqçi kimi özünü zəif hiss edirdi. Ona görə də qeyri-əsas ixtisas sayılan Kooperativ Texnikumunda bədən tərbiyəsi vəzifəsinə keçirilmişdi. O, burada ömrünün sonuna qədər işləyib.

3 oğul və 6 nəvəsi olan nümunəvi ailə başçısı bu xoşbəxtliyi cəmi 62 yaşına qədər yaşaya bilib. Ağır xəstəlik onu tezliklə haqqın dərgahına qovuşdurub. Belə ki, Çingiz İdris oğlu Məhərrəmov 2002-ci ildə həyatla vidalaşıb. O, Qaraçuxur qəbirstanlığında torpağa tapşırılıb. Onu tanıyanlar, idmançılar, şuşalılar heç vaxt Çingiz Məhərrəmovu unutmayacaqlar.

***Əbülqasım Novruzov,***
***Şuşa Uşaq Gənclər İdman-Şahmat-Məktəbinin direktoru***

## "Judo Club 2012"nin üzvləri ölkə birinciliyinin qalibi oldular

"Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən 23 yaşadək cüdoçular arasında Azərbaycan birinciliyinə yekun vurulub. Yarışda 51 klubu təmsil edən 347 (294 oğlan, 53 qız) cüdoçu medallar uğrunda mübarizə aparıb. İki gün davam edən birincilikdə bütün çəki dərəcələri üzrə qaliblər müəyyənləşib. Turniri 13 (4 qızıl, 6 gümüş və 3 bürünc) medalla başa vuran "Judo Club 2012"nin yetirmələri komanda hesabında birinci yeri tutublar. Klubun üzvlərindən Elçin Hüseynov (66 kq), Samir Ağayev (81 kq), Diana Şoranova (63 kq) və Aidə Baxışova (70 kq) bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu adını qazanıblar. Nurlan Osmanov (66 kq), Sərdar Səfixanov (90 kq), Kənan Əhmədov (+100 kq), Elvira Əsgərova (52 kq), Zeynəb Məmmədova (57 kq) və Nərmin Abdullayeva (70 kq) gümüş medala sahib olublar. Yaşar Nəcəfov (60 kq), Fərid Qəzənfərov (60 kq) və Ayxan Tanverdiyev (66 kq) isə komandaya bürünc medallar qazandırıblar.

4 qızıl, 1 gümüş və 5 bürünc medal qazanan "Neftçi" İdman Klubunun yetirmələri turniri ikinci sırada tamamlayıb. "Atilla" komandası isə 5 (2 qızıl, 1 gümüş, 2 bürünc) medalla üçüncü olub.

Ölkə birinciliyinin qalib və mükafatçıları medallar və Azərbaycan Cüdo Federasiyasının diplomları ilə təltif olunublar.



## *"Baku Open 2019" başlayır*



Sentyabrın 20-dən 28-dək "Baku Open 2019" beynəlxalq şahmat festivalı keçiriləcək. Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, festival Novxanı qəsəbəsində yerləşən "Spring" oteldə baş tutacaq. Festivalın uşaq turniri isə Respublika Şahmat Mərkəzində keçiriləcək. Turnir İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq.

# F U T B O L



## "Qarabağ" mübarizəni Avroliqada davam etdirəcək

UEFA Çempionlar Liqasında 3-cü təsnifat mərhələsinin cavab oyununda təmsilçimiz "Qarabağ" klubu Bakıda Kiprin APOEL komandasını qəbul edib. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən görüş qonaqların 2:0 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, Kiprdə keçirilən ilk görüşdə 2:1 hesablı qələbə qazanan Ağdam təmsilçisi pley-offa vəsiqə üçün yaxşı şans əldə etsə də, doğma azarkeşlər önündə gözlənilmədən 0:2 hesabı ilə uduzaraq Çempionlar Liqasında mübarizəni dayandırıb. Bu məğlubiyyətə baxmayaraq, "Qarabağ" avrokuboklarda mübarizəsini davam etdirir. Belə ki, UEFA-nın reqlamentinə əsasən "Qarabağ" UEFA Avropa Liqasının play-off mərhələsində yolunu davam etdirəcək. Qurban Qurbanovun yetirmələri UEFA Avropa Liqasının pley-offunda Şimali İrlandiyanın "Linfild"komandası ilə üz-üzə gələcəklər.

Pley-offun oyunları avqustun 22-də və 29-da keçiriləcək. "Qarabağ"ın ilk matçı səfərdə olacaq.

13 avqust

**Çempionlar Liqası**
**3-cü təsnifat mərhələsinin cavab oyunu**

**20:30. "Qarabağ" (Azərbaycan) - APOEL (Kipr) - 0:2**

**Qollar:** De Vinsente, 34-pen. Uroş Matiç, 68

**Qırmızı vərəqə:** Almeyda, 90+4

**Hakimlər:** Daniel Sibert, Yan Seydel, Lasse Koslovski, Martin Petersen (Almaniya).

***Bakı. Tofiq Bəhramov adına Respublika Stadionu.***

***İlk oyun - 2:1.***

## "Neftçi"nin Avrokuboklar macərası başa çatdı

Bakının "Neftçi" klubu UEFA Avropa Liqasının 2019-2020-ci il mövsümünün üçüncü təsnifat mərhələsinin cavab görüşünə çıxıb. Paytaxt təmsilçisi İsraildə "Bney Yehuda" klubunun qonağı olub. Petah Tikvadakı "Ha Moshava" stadionunda keçirilən oyun meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Komandamızın heyətində yeganə qolun müəllifi 90-cı dəqiqədə penalti zərbəsini dəqiq yerinə yetirən Emin Mahmudov olub.

Beləliklə, "Neftçi" komandası iki oyunun nəticəsinə əsasən, Avroliqada mübarizəni dayandırıb. "Bney Yehuda" klubu pley-off mərhələsində İsveçin "Malmö" klubu ilə qarşılaşacaq.

Məlumat üçün qeyd edək ki, avqustun 8-də "Bakcell Arena"da reallaşan ilk qarşılaşmada heç-heçə qeydə alınıb - 2:2. Rəqibin heyətində 26-cı və 36-cı dəqiqələrdə müvafiq olaraq Tambi Saqasla Muhammed Qadir fərqləniblər. Oyunun 43-cü dəqiqəsində Stiven Monroz hesab arasındakı fərqi azaldıb. Oyunun sonlarında (90+7) isə Namiq Ələsgərov bərabərlik qolunu vurub.



16 avqust

***Avropa Liqası 3-cü təsnifat mərhələsi, cavab oyunu***

**21:00. "Bney Yehuda" (İsrail) - "Neftçi" (Azərbaycan) - 2:1**

**Qollar:** Don Jan, 14 (1:0), Tamqi Saqas, 66 (2:0), Emin Mahmudov, 90+3-pen (2:1)

**Hakimlər:** Daniele Doveri, Alessandro Kostantso, Alessio Tolfo, Fabritsio Paskua

***Petah Tikva. "Ha Moshava" stadionu***

İlk oyun - 2:2

## Transfer xəbərləri

"Bavariya" Xorvatiya millisinin futbolçusu İvan Perişiçi transfer edib. "İnter"in 30 yaşlı yarımmüdafiəçisi icarə əsasında Münhen təmsilçisində oynayacaq. Almaniya mətbuatının xəbərinə görə, "Bavariya" futbolçunu sonradan 20 milyon avroya almaq şərti ilə bir illik 5 milyon avroya icarəyə götürüb.



* * *

İspaniyanın "Atletik" klubu hücumçusu İnaki Uillyamsla müqaviləni yeniləyib. 25 yaşlı forvardla Bilbao təmsilçisinin yeni sözləşməsi 2028-ci ilə qədər nəzərdə tutulub. Uillyamsı transfer etmək istəyən klub 135 milyon avrosundan keçməlidir. Qeyd edək ki, Qana əsilli ispaniyalı futbolçu 2012-ci ildən "Atletik"də çıxış edir.



* * *

"İnter"in hücumçusu Mauro İkardi karyerasını "Yuventus"da davam etdirəcək. Argentinalı futbolçu Turin klubu ilə ilinə 8 milyon avro olmaqla 5 illik müqavilə bağlayıb. İkardinin "Yuventus"a transferinin klubun Paulo Dibala və Mario Mandzukiçi satdıqdan sonra həyata keçiriləcəyi bildirilib.

* * *

"Valensiya" "Mançester Siti"nin futbolçusu Eliakim Manqalanı transfer edib. 28 yaşlı müdafiəçi ilə 2 illik müqavilə imzalanıb. İngiltərə təmsilçisi ilə 1 illik müqavilə qalan fransalı oyunçunun təzminat qiyməti barədə məlumat verilməyib. Qeyd edək ki, Manqala 2014-cü ildə "Portu"dan 45 milyon avroya İngiltərə klubuna transfer olunmuşdu.

* * *

"Atletiko" növbəti futbolçunu heyətə cəlb etməyə çalışır.

Madrid klubu "Valensiya"nın hücumçusu Rodriqo Morenonun transferi üçün razılığa gəlib. "Atletiko"nun bu keçidə görə 60 milyon avro ödəyəcəyi bildirilib. Komandasının son məşqini buraxan ispan oyunçunun transferinin yaxın günlərdə rəsmən açıqlanacağı gözlənilir.

* * *

"Monako" "Everton"un futbolçusu Henri Onyekurunu transfer edib.

22 yaşlı hücumçu ilə 5 illik müqavilə imzalanıb.

Fransa mətbuatı bu transfer üçün knyazlıq təmsilçisinin 13.5 milyon avro təzminat ödədiyini yazıb. Qeyd edək ki, H.Onyekuru ötən mövsüm icarə əsasında "Qalatasaray"da oynayıb.

* * *

"Beşiktaş" növbəti transferini rəsmiləşdirib. İstanbul təmsilçisi Fransanın "Genqam" klubunun müdafiəçisi Pedro Rebeşunu 1 illik icarəyə götürüb. Qeyd edək ki, "Benfika"nın yetirməsi olan Rebeşu ötən mövsüm Fransa Liqasında 36 oyuna 8 qol ötürməsi edib.

* * *

Dortmund "Borussiya"sının futbolçusu Sindzi Kaqava karyerasını İspaniyada davam etdirəcək. 30 yaşlı yarımmüdafiəçi icarə əsasında "Saraqosa"da çıxış edəcək. Sequnda təmsilçisinin rəsmi saytı Yaponiya millisinin üzvü ilə 2 illik müqavilə imzalandığını açıqlayıb.

* * *

"Tottenhem" futbolçusu Lukas Moura ilə yeni müqavilə imzalayıb.

26 yaşlı hücumameyilli yarımmüdafiəçi ilə müqavilənin müddəti 2024-cü ilin iyununa qədər artırılıb. Qeyd edək ki, L.Moura 2018-ci ilin yanvarından PSJ-dən İngiltərə təmsilçisinə transfer olunub.O, ötən mövsüm 49 matçda 15 qol vurub, 2 qolun ötürməsini verib.

* * *

"Roma"nın yarımmüdafiəçisi Stiven Nzonzinin "Qalatasaray"a keçidi rəsmiləşib. Bu barədə İstanbul klubunun saytı məlumat yayıb. Fransa millisinin üzvü Türkiyə klubuna 1 illik icarəyə verilib.

Müqaviləyə əsasən "Qalatasaray" Nzonzi ilə illik icarə müddətini gələn ilin yayında daha bir il uzatmaq hüququna malik olacaq.



Qeyd edək ki, Stiven Nzonzi "Roma"ya ötən il "Sevilya"dan keçib.

* * *

"Ayaks" futbolçusu Hakim Ziyeşlə müqavilənin müddətini uzadıb.

Mərakeşli yarımmüdafiəçi ilə müqavilənin müddəti 2021-ci ildə başa çatacaq müqavilə 2022-ci ilin iyununa kimi uzadılıb.

Ziyeş 2016-cı ildə "Tvente"dən "Ayaks"a transfer olunub. O, ötən mövsüm Hollandiya çempionatında 29 matçda 16 qol vurub.

* * *

"Fənərbaxça" ilə müqaviləsi başa çatan Martin Şkrtelin yeni klubu müəyyənləşib. 34 yaşlı müdafiəçi "Atalanta"ya transfer olunub. Bu barədə A seriyası klubunun saytı məlumat yayıb. Onunla 1 illik müqavilə imzalanıb. Qeyd edək ki, "Fənərbaxça" slovakiyalı oyunçu ilə yeni müqavilə imzalamaq üçün danışıqlar aparsa da, tərəflər maliyyə şərtlərində razılığa gələ bilməmişdi.



* * *

"Haddersfild"in futbolçusu Matias Zanka Yorqensenin "Fənərbaxça"ya keçidi rəsmiləşib. Danimarkalı müdafiəçi ilə 3 illik müqavilə imzalanıb. Qeyd edək ki, Zanka ötən mövsüm Premyer Liqada 24 matçda 3 qol vurub.

* * *

Dortmund "Borussiya"sının futbolçusu Ömər Toprak "Verder"ə keçib. 30 yaşlı müdafiəçi bir mövsümlük icarəyə verilib. Məlumatı "Verder"in saytı yayıb. Toprak "Borussiya"da 2017-ci ildən çıxış edir. O, ötən mövsüm Bundesliqada 9 oyunda forma geyinib.

* * *

"Mançester Yunayted" "Monako"nun futbolçusu Hannibal Mecbri ilə razılıq əldə edib. "Mankunyanlar" 16 yaşlı fransız yarımmüdaifəçi ilə yaxın günlərdə müqavilə imzalanacaq.

"Qırmızı şeytanlar"ın bu transferə görə "Monako"ya 9 milyon funt sterlinq ödəyəcəyi bildirilir.

Qeyd edək ki, "Monako" Hannibalı 14 yaşında olarkən 1 milyon funt sterlinqə transfer edib.

* * *

Milllimizin üzvü Eddi İsrafilov İspaniyanın "Alkorkon" klubundan ayrılıb. 27 yaşlı futbolçu Sequndanın digər təmsilçisi "Albasete"yə keçib.

Klublar arasında bu transferlə bağlı razılıq əldə olunduğu bildirilir. Yeni klubunun İsrafilovu yaxın günlərdə ictimaiyyətə təqdim edəcəyi gözlənilir.



Dünya idmanı

# FİDE: Tarixin ən yaxşı şahmatçısı kimdir?

Beynəlxalq Şahmat Federasiyası (FİDE) azarkeşlər arasında keçirdiyi sorğunun nəticələrini açıqlayıb. "Tarixin ən yaxşı şahmatçısı kimdir?" - adlı sorğuda 500-dən artıq şahmat azarkeşi iştirak edib. Yekun nəticələrə əsasən, norveçli Maqnus Karlsen bu sorğuda bütün rəqiblərini qabaqlayıb. "Şahmat tacı"nın hazırkı sahibi 36 faiz nəticə ilə birinci olub. Rusiyalı şahmatçı Harri Kasparov (28 faiz) ikinci yeri tutub. Azarkeşlər amerikalı Bobbi Fişeri üçüncü yerə layiq görüblər- 25 faiz. Keçmiş dünya çempionu Vişvanatan Anand 11 faiz səs toplayıb.






# Dəmir Mayk: "Ayda 40 min dollar xərcləyirəm"

Mayk Tayson "WSB-TV" telekanalına verdiyi müsahibədə maraqlı fikirlər söyləyib. Dünya boksunun əfsanələrindən olan "Dəmir Mayk" bildirib ki, o, marixuana istifadəçisidir. "Mən bunu gizlətmirəm. Dostum Eben Brittenlə birlikdə marixuana üçün ayda 40 min dollar xərcləyirəm. Hətta özümün bu sahədə təsərrüfatım var", - deyə Tayson bildirib. Məlumat üçün bildirək ki, Mayk Tayson hazırda Kaliforniyada yaşayır. Onun yaşadığı ştatda marixuanadan istifadə leqallaşıb.

# *Hazardın 11 milyon avroluq yeni malikanəsi*

Madrid "Real"ının belçikalı yeni transferi Eden Hazard üçün şəhərdə yeni malikanə ayrılıb. "Marca" nəşrinin verdiyi məlumata görə, malikanənin qiyməti 11 milyon avro dəyərindədir. Hazarddan əvvəl həmin evdə tanınmış müğənni Alexandro Sans yaşayıb. La Finka rayonundakı bu malikanədə Hazard ailəsi ilə birlikdə yaşayacaq.

# Yığma komandanın üzvləri tətil elan ediblər



Basketbol üzrə Venesuela millisinin üzvləri dünya çempionatı ərəfəsində tətil elan ediblər. Basketbolçular baş məşqçi Fernando Duronun münasibətindən narazıdırlar. Şimali Amerika təmsilçiləri bildiriblər ki, əgər komanda üçün inventar və tibbi ləvazimatlar lazımi səviyyədə olmasa, onlar dünya çempionatında iştirak etməyəcəklər. Məlumat üçün bildirək ki, basketbol üzrə dünya çempionatı avqustun 31-dən sentyabrın 15-nə qədər Çində təşkil olunacaq. Venesuela millisi qrupda Çin, Polşa və Kot-d İvuar yığmalarına qarşı mübarizə aparacaq.

# Futbolçu "Fort Boyard"a görə klubunu aldadıb



"Marsel" klubunun rəhbərliyi Adil Rami ilə müqaviləyə xitam verməyi planlaşdırır. Bu, futbolçunun nizam-intizamı pozması və saxtakarlığı ilə bağlıdır. Belə ki, fransalı yarımmüdafiəçi dünya şöhrətli "Fort Boyard" layihəsində iştirak etmək təklifini klubdan xəbərsiz qəbul edib. Dünya çempionu "Marsel" rəhbərliyini xəbərdar etmədən həmin tele-layihədə iştirakını təsdiqləyib. Buna görə də, Raminin tezliklə "Marsel"dən uzaqlaşdırılacağı gözlənilir.

# *Çempionun anası oğlunun döyüşlərinə baxmır*

Rusiyalı döyüşçü Həbib Nurməhəmmədovun anası heç vaxt oğlunun keçirdiyi qarşılaşmalara baxmayıb. Bu barədə döyüşçünün atası Abdulmanap Nurməhəmmədov məlumat verib. "Həbibin anası döyüş başlayan kimi otağı tərk edir. Görüş başa çatandan sonra üzümdəki ifadələrdən bilir ki, vəziyyət nə yerdədir. Amma mən, əksinə, son ana qədər gözümü televizordan çəkmirəm", - deyə o, bildirib.



Qeyd edək ki, yüngül çəki üzrə dünya çempionu olan Həbib Nurməhəmmədov növbəti görüşünü sentyabrın 7-də Əbu-Dabidə keçirəcək. Onun rəqibi amerikalı Dastin Porye olacaq.

**olimpnews.az - sizin saytınız**




# MMA döyüşçüsü "Forsaj-9"da

Qarışıq döyüş növləri (MMA) üzrə çıxış edən kamerun əsilli fransalı Frensis Nqannu "Forsaj" filminə dəvət alıb. 32 yaşlı döyüşçü filmin doqquzuncu seriyasında yer alacaq. Adı çəkilən filmdə idmançıların yer alması ilk dəfə deyil. Belə ki, Nqannudan əvvəl UFC çempionu Ronda Rouzi "Forsaj-7"də aktyorluq bacarığını nümayiş etdirmişdi. O ki qaldı filmin 9-cu hissəsinə, bu ekran əsərinin təqdimatı 2020-ci ildə Hindistanda keçiriləcək.



Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19